# Onun yüksək vətəndaşlıq ruhu



**Xalq şairi Qabilin yaradıcılığı rəngarəng və çoxşaxəlidir. Onun əsərlərində həm lirik ovqata köklənmiş məhəbbət və əsrarəngiz təbiətin tərənnümü, həm də fərdi psixoloji durumdan doğan poeziya nümunələri istənilən qədərdir.**

Saf, müqəddəs məhəbbət və Abşeronlu, Qarabağlı, Muğanlı, Milli, Şirvanlı, Şəkili Azərbaycan təbiəti şairin əbədi, tükənməyən ilham qaynaqlarıdır. Buna dair Qabilin yaradıcılığından onlarla, yüzlərlə misal göstərmək olar. Lakin o, eyni zamanda, müasir dövrün qaynaqları ilə yaşayan, xalqının, millətin problemlərini bir an da olsun nəzərdən qaçırmayan, zamanın nigaran suallarına cavab verməyə çalışan yüksək vətəndaş mövqeli şairdir.

Qabilin şeirləri 60 illik bir dövrdə Azərbaycan xalqının ictimai-siyasi həyatının bədii salnaməsidir. Bu müddətdə xalqımızın tarixində elə bir mühüm ictimai-siyasi hadisə olmayıb ki, Qabil həmin hadisəyə öz vətəndaş mövqeyini bildirməsin.

Hələ ötən əsrin 60-cı illərində cəmiyyətdə ciddi-mənəvi durğunluğun hökm sürdüyü bir vaxtda Qabil "Tramvay parka gedir" şeirini yazdı. Bu şeir cəmiyyətdə hökm sürən ətalətə, durğun-

luğa qarşı açıq bədii üsyan idi. Bu zaman sovet ideologiyasının əsirinə çevrilən siyasi və eləcə də ədəbi qüvvələr Qabilə qarşı güclü hücumlar təşkil etdilər. Lakin Qabil minillik palıd kimi əyilmədi, bu hücumlara mətanətlə sinə gərdi. Sona qədər öz əqidəsinə, vətəndaş-şair mövqeyinə sadiq qaldı. O, sonralar yazdığı, böyük ədəbi hadisəyə çevrilən "Nəsimi" poemasında, "Səhv düşəndə yerimiz", "Türkün qəbri" (buna poema da demək olar), "Gün o gün olmayacaq, nə qədər ki...", "Əslində", "Mərsiyə" ("Xalqımı, millətimi güllələbaran eylədilər"), "Gedək, gedək", "Suqovuşanda" və sair kimi onlarla ictimai-siyasi məzmunlu əsərində öz şair "mən"inə əbədi sadiqliyini dönə-dönə sübut etdi.

Xalqımızın milli-azadlıq hərəkatı tarixinə qanlı, həm də ən şərəfli səhifə kimi daxil olan 1990-cı ilin 20 yanvar gecəsi vətənpərvər şairin bütün varlığını silkələdi. Sanki azadlıq eşqi ilə alışıb yanan Vətən oğullarının al qanı, növcavan şəhidlərin cəsədi üstündə qıyya çəkən anaların göz yaşı daşa, torpağa deyil, şairin ürəyinə axdı. Həmin gecə Qabil Azərbaycan xalqının əbədi ağrısı olan "Mərsiyə" şeirini yazdı. Şair mərsiyəsində xalqın vulkan tək püskürən qəzəbini, min yerdən qan fışqıran yarasının dəhşətli ağrısını, Allah dərgahına qədər boy verən ah-naləsini özünəməxsus tərzdə böyük vətəndaşlıq yanğısı ilə əks etdirmişdi.

O, sonralar yazdığı "Mən göz yaşlarına dözə bilmirəm" şeirində 20 yanvarda başlanan ürək yanğılarının bitməz olduğunu bir daha bəyan edib.

*Mən göz yaşlarına dözə bilmirəm,*
*Yağanda Şəhidlər xiyabanına.*
*Bu ağlı-qaralı mərmər dastana,*
*Bu gülləri məşəl daş gülüstana,*
*Bu busə dadmayan neçə oğlana*
*Ağlama, döz görüm, daşsa da qəlbin,*
*Ağla ibrətamiz bir ehtişama.*
*Mən göz yaşlarına dözə bilmərəm,*
*Analar saç yola məzar başında.*
*Yox, daha mərsiyə yaza bilmərəm,*
*Cavanlar qırılsa nakam yaşında.*

Qarabağ məsələsinin ədalətli həllinin düyünə düşməsi, beynəlxalq birliklərin bu məsələyə laqeyd münasibəti, Vətən torpaqlarının işğaldan azad edilməsinin uzanması vətənpərvər şairi darıxdırır. Bəs nə etməli, Vətənin sərhədlərini necə bütövləşdirməli, xalqın itirilən torpaqlarını, tapdanan şərəfini necə xilas etməli? Şair qəlbi rahatlıq bilmir, bir ipucu, işıqucu, bir ümid, güman yeri arayır, tapır da. Qəti qərara gəlir ki, bu ümidin yeganə bir ünvanı var: AZƏRBAYCAN ƏSGƏRİ!

Bu eşq, bu ehtirasla da "Ümid sənədir ancaq..." şeirini yazır.

1996-cı ildə qələmə alınan 90 misralıq bu şeir başdan-başa şairin sonuncu ümid və güman yeri olan qəhrəman Vətən övladına - AZƏRBAYCAN ƏSGƏRİNƏ hədsiz inam və məhəbbətdən yoğrulub.

Qarabağ - Azərbaycan torpağıdır! Bu danılmaz həqiqəti hamı təsdiqləyir. Münaqişənin (əslində müharibənin) tənzimlənməsi üçün məsul şəxslər də Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirirlər. Lakin heç kəs əməli şəkildə Qarabağın işğaldan azad olunmasına real kömək göstərmir, bircə şablon cümlə ilə işlərini bitmiş hesab edir: Məsələ sülh yolu ilə həll olunmalıdır.

Bu isə bütün varlığı ilə doğma Vətənə, onun hər qarışına vurğun olan şairi qeyzləndirir, təbdən çıxarır:

*Uzanır danışıqlar,*
*İmzalanır sənədlər*
*Xəritədə aləmə*
*Göstərilir sərhədlər...*
*Səsimizə səs verir*
*Dünya başbilənləri,*
*Ümid sənədir ancaq,*
*Azərbaycan əsgəri!*

BMT, ATƏT, Avropa Şurası... Bunlar və bunlara bənzər beynəlxalq təşkilatların sayı-hesabı bilinməyən diplomatları gəlir, cürbəcür səmərəsiz bəyanatlar verib gedirlər. Beynəlxalq yardım təşkilatları qaçqın və məcburi köçkünlərin könlünü yardımlar və ianələrlə almaq istəyir. Lakin bunların heç biri Qarabağ məsələsinin həllinə yardım etmir.

*Dəyirmi masalarda*
*İzi var dirsəklərin.*
*Ağlasığan söhbəti,*
*Sözü var dəstəklərin.*
*Yardım bağlamasında*
*Özü var dəstəklərin.*



*Lap ləl-cəvahir olsun*
*Hər yardımın dəyəri...*
*Ümid sənədir ancaq,*
*Azərbaycan əsgəri!*

Şair özünəməxsus bədii bir üslub, aydın dillə, təsirli ifadələrlə Qarabağ dərdini çözələyir, bu dərdin əlacını arayır, yenə də son əlac olaraq Vətən əsgərinin hünərinə güvənir:

*İşğal altında qalır,*
*Torpağımız, daşımız.*
*Nələr görmür gözümüz,*
*Nələr çəkmir başımız.*
*... Çadır göstərmək olub*
*Hər çatana peşəmiz.*
*Sərgi olmasın deyə*
*Bu Mil-Muğan düzləri,*
*Ümid sənədir ancaq,*
*Azərbaycan əsgəri!*

Şair sadə xalq dilində yaddaqalan bədii lövhələr yaradır, Azərbaycan əsgərini qovu alışdıran, yəni qatı düşməni yandırıb-yaxacaq çaxmağa bənzədir:

*... Bir şey görünmür hələ,*
*açılmır ki, açılmır*
*düyünü bu torpağın.*
*Qov alışa bilərmi*
*od saçmasa çaxmağın?*
*İldırımlardan belə*
*Umma bu zərrələri.*
*Ümid sənədir ancaq,*
*Azərbaycan əsgəri!*

Şeir işıqlı ovqatla bitir. Şair sülh bayrağının "yellənməsini", bu sülh bayrağına "kəm baxan bədgümanlar"ın aradan çıxmasını, nəhayət "SÜLHÜN ŞAD XƏBƏRİNİN" eşidilməsini arzulayır. Şairin şeirində qarşısına qoyduğu son məqsəd də budur. Elə Azərbaycan xalqının arzusu da budur!

*Yellənsin sülh bayrağı*
*Bu bayrağa kəm axan,*
*Həm baxmayan, həm baxan*
*Bədgüman istəmirəm.*
*Sevindirsin milləti*
*Qoy sülhün şad xəbəri,*
*Ümid sənədir ancaq,*
*Azərbaycan əsgəri!*

Həm mövzu aktuallığına, həm də bədii dəyərinə görə "Ümid sənədir ancaq..." şeiri xalq şairi Qabilin ictimai-siyasi mövzuda yazdığı ən gözəl əsərlərindən biridir. Nə qədər ki, Qarabağ torpağı işğal altındadır, nə qədər ki, dünyada müharibə, işğal təhlükəsi var, bu şeir də ictimai və bədii dəyərini saxlayacaq.

Şeirin dərsliklərə salınaraq gənc nəslə çatdırılması və geniş təbliği yeni yetişən və gələcək nəsillərin Vətənə məhəbbət və hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayaraq, misilsiz xidmət göstərəcək. Təsadüfi deyil ki, yüksək vətəndaş mövqeyi xalq şairi Qabilin "Ümid sənədir ancaq..." şeiri əsasında qısametrajlı film çəkilərək, tez-tez nümayiş etdirilməklə, işğal altında qalan torpaqlarımızın azad olunmasına güc və qüdrətimizin varlığını göstərməklə cəmiyyətin, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində öz rolunu oynayır.

Bu gün xalq şairi Qabil aramızda yoxdur. Lakin ədəbiyaşar Qabilimiz daima xalqın, millətin qəlbindədir və o, poeziyası ilə, eyni zamanda bir maraqlı şəxsiyyət kimi də heç vaxt unudulmayacaq.

**● Ə.MƏMMƏDOV**

**P.S.** ***Xalq şairi Qabil 1926-cı ildə Bakıda anadan olub. ADPU-nu bitirib. Yardımlı və Bakıda müəllim işləyib, "Azərbaycan müəllimi", "Kommunist" qəzeti redaksiyaları ilə əməkdaşlıq edib, M.Qorki adına Ədəbiyyat İnstitutu nəzdindəki ikiillik ədəbiyyat kurslarında müdavim olub, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram verilişləri redaksiyasının məsul redaktoru, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında poeziya şöbəsinin müdiri, "Azərbaycan" jurnalı redaksiyasında şeir üzrə ədəbi işçi, baş redaktorun müavini vəzifələrində çalışıb.***

***"Gəl baharım" adlı ilk şeiri 1944-cü ildə "Ədəbiyyat" qəzetində dərc edilib. "Səhər açılır", "Sahil işıqları", "Ömrüm boyu", "Küləkli havalarda", "Nəsimi", "Rübailər", "Təmizlik", "Ömrün həbləri", "Gedən yerim olaydı", "Nağaraçı", "Adsız budaqlar" və s. kitabların müəllifidir.***

***2007-ci ildə vəfat edib.***